AZAD AZƏRBAYCAN 31 mart 2022-ci il №03 (3714) 



## Əsədulla Qurbanov - 86

# Əsədulla Qurbanov:

# Tanınmış islamşünas, filosof-alim

**Fəlsəfə elmləri doktoru, Bakı Dövlət Universitetinin professoru, BDU-da İslamşünaslıq Elmi-Tədqiqat Mərkəzinin rəhbəri Əsədulla Qurbanov hələ Balakən rayonunun Katex kənd orta məktəbində oxuyarkən, dini mövhumatın, xurafatın və cəhalətin əleyhinə olmuşdur. Başqa sözlə desək, o, gələcəkdə dinin - islamın bəzi zərərli mərasimlərinin mahiyyətini, onların aradan qaldırılmasının yolları haqqında daim götür-qoy edirdi. Əsədulla Qurbanov orta məktəbdə oxuyarkən, böyük və unudulmaz Xalq şairi Səməd Vurğunun "Vaqif" pyesində sufi şairi Mola Vəli Vidadinin səhnədə bədii obrazını bilavasitə özünəməxsus tərzdə məharətlə ifa etmişdir. Pyesin 1-ci pərdəsində oynadığı M.Vidadinin söylədiyi monoloqunu indi də unutmamışdır:**

*"Xudaya! İnsanın halı yamandır,*
*Nələr çəkdiyimiz sənə əyandır.*
*Mənası varmıdır min təriqətin?*
*Aç - aç qapısını sən həqiqətin,*
*Nə olar bir yeni işıq ver bizə,*
*Bizim kor yaramış gozlərimizə."*

İslamşünas-alim Əsədulla Qurbanov çox erkən yaşda atasını itirmişdir. Onun iki qardaşı Böyük Vətən Müharibəsində həlak olmuşdur. Qardaşının nəvəsi isə İkinci Qarabağ savaşında şəhid olmuşdur.

Əsədulla Qurbanov 1954-cü ildə orta məktəbi bitirdikdən sonra Bakıya gələrək əvvəlcə 2 №-li peşə texniki məktəbində, daha sonra Bakı Mədəni-Maarif Texnikumunda, daha sonra isə Bakı Dövlət Universitetində təhsil alır.Universiteti bitirdikdən sonra Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin mərkəzi aparatında məsul vəzifələrdə işləyərkən tez-tez Bakı teatrlarında tamaşaya qoyulan, dini mövhumatı və xurafatı tənqid edən tamaşalara baxmağı da unutmur. İş elə gətirir ki, Əsədulla Qurbanov Nazirlikdə işlərkən daha məsul vəzifəyə - Azərbaycan Dövlət Din Tarixi Muzeyinə direktor vəzifəsinə irəli çəkilir. O, bu elm və mədəniyyət ocağında işlərkən nəzəri və əməli cəhətdən "Dinşünaslıq" və "İslamşünaslıq" elmlərinin sirlərinə bələd olur. Əsədulla Qurbanov bununlada kifayətlənmir. O, bu məqsədlə bitirdiyi Bakı Dövlət Universitetinin "Dinşünaslıq" kafedrasında dərs deməyə üstünlük verir. O, bu kafedrada əvvəlcə dissertant sonra aspirant olur. Onun elmi-tədqiqat işinin mövzusu belədi ki, "Azərbaycan kəndlisinin mənəvi aləmində sekulyarlaşma-nın-dünyəviləşmənin xarakterik xüsusiyyətləri" (Azərbaycan Respublikasının Şəki-Zaqatala zonasının materialları əsasında elmi-fəlsəfi və sosioloji təhlil).

Əsədulla Qurbanov yuxarıda qeyd olunan kafedrada saat hesabı ilə dərs deməklə yanaşı, eyni zamanda Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə üzrə Elmi-Tədqiqat İnstitutuna elmi işçi vəzifəsinə işə də düzəlir. O, gecəli-gündüzlü elmi-tədqiqat işi ilə məşğul olur. Gərgin elmi axtarışlar, əmək öz müsbət nəticəsini verir. O, 1976-cı ildə Bakı Dövlət Universitetindəki "Dinin tarixi və nəzəriyyəsi" ixtisası üzrə 09.00.06 indeksi üzrə namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək fəlsəfə elmləri namizədi olur. Əsədulla Qurbanov apardığı elmi tədqiqat mövzusu ətrafında bir sıra əsərlər yazaraq respublika mətbuatında çap etdirir. "M.S.Ordubadinin dinə-islama münasibəti" (1979), "Sosialist həyat tərzi və islam" (1982), "Din antikommunizmin xidmətində" (1983), "Gənclərin mənəvi tərbiyəsi" (1985) və s. kitabların buna misal göstərmək olar.

İstedadlı islam araşdırıcısı olan Ə.Qurbanov fəlsəfə elmləri namizədi olmaqla kifayətlənmir. O, islama aid elmi-tədqiqat işini davam etdirir. Başqa sözlə desək, doktorluq dissertasiyası üzərində çalışır. Tədqiqat işinin mövzusu belədir: "Milli və millətlərarası münasibətlər kontekstində sekulyariaşmanın-dünyəviləşmənin xarakterik xüsusiyyətləri" (Azərbaycan respublikasının materialları əsasında elmi-fəlsəfi və sosioloji təhlil). O, bu mövzudakı doktorluq dissertasiyasının 1990-cı ildə Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutundakı ixtisaslaşdırılmış müdafiə şurasında çox böyük müvəffəqiyyətlə müdafiə edir. Müdafiə şurasının sədri mərhum akademik Firuddin Köçərli, opponentlər akademiyanın müxbir üzvü mərhum filosof Səttarov, moskvalı alimlər - filosoflardan dünya şöhrətli şərqşünas, islamşünas alim (Rusiya İctimai Elmlər Akademiyasının böyük elmi işçisi, tarix elmləri doktoru, professor Qasım Kərimov) və fəlsəfə elmləri doktoru professor İqor Yakovleviç Kanterov olmuşlar.

**Ə.Qurbanovun doktorluq dissertasiyası aparıcı təşkilatdan rəy almaq üçün M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin "Dinşünaslıq" kafedrasına göndərilmişdir. Alim dissertasiya işinə bu sahədə çalışan görkəmli alimlərdən - moskvalı R.R.Movlütov və M.A.Aşirov, İ.N.Yablokov, azərbaycanlı alimlərdən M.F.Cəlilov, Q.İ.Mustafayev və b. yüksək qiymət vermişlər.**

Professor Əsədulla Qurbanov din və islam problemlərinə, daha doğrusu dinşünaslığa, islamşünaslığa aid Moskva, Leninqrad, Bakı, Daşkənd, Aşqabad, Maxaçkala və s. şəhərlərdə keçirilən respublika ittifaq və beynəlxalq miqyaslı elmi-nəzəri konfranslarda, simpoziumlarda Azərbaycanı ləyaqətlə təmsil edirdi. O, məşğul olduğu sahə ilə bağlı bir sıra tədris metodiki xarakterli əsərlər yazıb çap etdirir. Bələlərinə "Nəzəri dinşünaslığa giriş" (1994), "Nəzəri islamşünaslığa giriş" (1996) adlı maraqlı əsərlər yazıb çap etdirir.

İstedadlı və yorulmaz tədqiqatçı, ustad, bacarıqlı müəllim təbliğatçı olan Əsədulla Qurbanov Respublikanın radio və televiziyasında dərin məna və məzmunlu məqalələrlə, verilişlərlə, elmi-nəzəri, əməli, xarakterli konfranslarda, simpoziumlarda, habelə digər elmi məclislərdə maraqlı məruzələrlə çıxış edir. Onun bu sahədəki xidmətləri keçmiş SSRİ-nin, Azərbaycan SSR-in "Bilik" cəmiyyətləri, partiya, sovet orqanları və b. aidiyyəti rəhbər qurumlar tərəfindən çoxsaylı fəxri fərmanlar və döş nişanları ilə təltif olunmasına səbəb olmuşdur.

...Professor Əsədulla Qurbanov 1998-ci ildə Beynəlxalq İslam Əməkdaşlıq Təşkilatı tərəfindən Bakıda keçirilən "İslam Sivilizasiyası Qafqazda" mövzusunda beynəlxalq Simpoziumda fəal iştirak edir. Simpoziumda Ümummilli Liderimiz Heydər Əliyev çox dərin məna, məzmun və mündərəcə kəsb edən məruzə ilə çıxış etmişdir, tarixi nitq söyləyir. Ulu öndərimiz həmin məruzəsində demişdir: "...Azərbaycanda islamşünaslıq sahəsində XX əsr demək olar, tamam itirilmişdir. Bu işləri görmək üçün Azərbaycanda islamşünaslıq elmini inkişaf etdirmək lazımdır. Bu məqsədlə Azərbaycan Elmlər Akademiyası, Bakı Dövlət Universiteti və elmi-tədqiqat institutları həmin sahə üçün xüsusi təşkilatlar, orqanlar və elmi mərkəzlər yaratmalıdırlar. Belə təşəbbüslər olsa, mən onlan dəstəkləyəcəyəm, bunlar üçün hər cür şərait yaradacağam. Buna arxayın olun".

("Azərbaycan" qəzeti, 10 dekabr 1998-ci il).

**Göründüyü kimi, Ulu Öndərimiz müstəqil Azərbaycanda islamşünaslıq elminin banisi olan bu şəxsiyyət burada, ölkəmizdə sözügedən sahədəki işi elmi inkişaf etdirmək üçün respublikamızın və təhsil ocaqlarının qarşısında çox mühüm vəzifələr qoymuş və həmin vacib problemə dövlət qayğısının artırılmasının zəruriliyini vurğulamışdır.**

Professor Ə.Qurbanov qeyd olunan sahədə qarşıda duran vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsinə xidmət məqsədi ilə qiymətli təşəbbüslə çıxış edərək, Bakı Dövlət Universitetində "İslamşünaslığın Tdəqiqi Elmi Mərkəzi"nin yaradılmasına nail olmuşdur. Ə.Qurbanov həmin mərkəzə rəhbər vəzifəsinə təyin edilmişdir. Professor Ə.Qurbanov mərkəzin rəhbəri kimi ilk olaraq "Müstəqil Azərbaycanda islamşünaslığın aktual problemləri" mövzusunda elmi-nəzəri və əməli xarakterli konfrans keçirmişdir. Mərkəz konfransın tövsiyələri əsasında daha geniş fəaliyyətə başlamışdır. Onun bacarıqla rəhbərlik etdiyi mərkəzin digər uğurlu fəaliyyətinə aid qurum tərəfindən nəşr olunub tələbələrin istifadəsinə verilən "Beynəlxalq münasibətlərdə din-islam amili" adlı (ali məktəblər üçün dərslik),



bundan savayı mərkəzin xətti ilə Əsədulla Qurbanov tərəfindən çapa hazırlanan və nəşr edilən "İslamşünaslığa aid terminlərin izahlı ensklopedik lüğət"-nin "Dinşünaslığın əsasları" "İslamşünaslığın əsasları" (ali məktəblər üçün dərsliklə) "İslam və Heydər Əliyev fenomeni" adlı iri həcmli monoqrafiyasını göstərmək olar.

Görkəmli tədqiqatçı, pedaqoq, islamşünas-alim Əsədulla Qurbanov "İslamşünaslığın Azərbaycan konsepsiyası" layihəsi üzərində işi davam etdirir. Layihəyə əsasən alim islamşünaslıq elminin başlıca istiqamətlərini müəyyən etmişdir. O, qeyd etmişdir ki, islamşünaslıq elminin, onun predmetinin beş mühüm tərkib hissəsi vardır.

**Birincisi,** islamşünaslıq elmi islamın meydana gəlməsi, onun mənşəyi və mahiyyətini elmilik, məntiqilik, obyektivlik və dünyəvilik baxımından öyrənir.

**İkincisi,** islamşünaslıq elmi islam dininin fəlsəfəsini elmilik, obyektivlik, məntiqilik və dünyəvilik müstəvisində araşdırır.

**Üçüncüsü,** islamşünaslıq elmi islam dininin sosiologiyasını elmilik, obyektivlik, məntiqilik və dünyəvilik çərçivəsində səciyyələndirir.

**Dördüncüsü,** islamşünaslıq elmi islam dininin psixologiyasını elmilik, obyektivlik, məntiqilik mövqeyindən dəyərləndirir.

**Beşincisi,** islamşünaslıq elmi islam dininin fenomologiyasını elmilik, obektivlik, məntiqilik və dünyəvilik kontekstində qiymətləndirir.

**Tədqiqatçı pedaqoq, alim-filosof Əsədulla Qurbanov islam dininin bu kimi məziyyətlərə maarif olmasından çıxış edərək həmin dinə aşağıdakı doğru-düzgün elmi, obyektiv tərif vermişdir. "İslam dini ümumbəşəri mənəvi dəyərlərə malik olan, Şərqdə sivilizasiyanın inkişafının, insan təfəkkürü və onun təkamülünün müəyyən mərhələsində meydana gələn, planetar miqyaslı sosial, tarixi hadisə və fenomendir".**

Bu tərifin mahiyyətindən çıxış edən professor Əsədulla Qurbanov qarşıya belə bir sual qoyur, islam dini Azərbaycana və onun xalqına nə kimi töhvələr vermişdir? Cavab təxminən belədir:

**Birincisi,** islam şüuru ta VIII əsrdən etibarən xalqımızın qədim və zəngin mifoloji, bədii-estetik, əxlaqi-mənəvi, fəlsəfi, hüquqi, iqtisadi, habelə hərbi şüuru ilə bir kontekstdə təkamül yolu ilə təşəkkül tapıb formalaşaraq inkişaf etməyə başlamışdır.

**İkincisi,** islam şüuru xalqımızın tarixi yaddaşının bərpa olunmasına xidmət baxımından mühüm rol oynayır.

**Üçüncüsü,** islam şüuru xalqımızın milli mənlik şüurunu təkrar istehsalına güclü stimul vermək rolunu yerinə yetirir.

**Dördüncüsü,** islam şüuru xalqımızın milli potensial intellektinin zənginləşməsində aparıcı istiqamətlərdən birini təşkil edir.

**Beşincisi,** islam amili müstəqil Azərbaycanın daxili, mənəvi və beynəlxalq nüfuzunun artmasında xüsusi əhəmiyyət kəsb edir.

**Altıncısı,** islamın ümümbəşəri mənəvi dəyərləri müstəqil ölkəmizdə dünyəvi, hüquqi, demokratik dövlət, humanist, sivilizasiyalı və vətəndaş həmrəyliyi cəmiyyəti quruculuğunda müstəsna əhəmiyyətə malikdir.

**Yeddincisi,** islam amili dini terrorçuluğun, missionerliyin, mövhumatın, xurafatın, fanatizmin, fatalizmin, asketizmin, mistikanın və s. bu kimi mənfi halların qarşısının alınmasında önəmli vəzifələr yerinə yetirir.

**...Lakin...**

Burada, qarşıya təbii və çox haqlı sual çıxır. Görəsən, müəllif yuxarıdakı abzasda hər iki tərəfi üç nöqtələr qoyduğu "lakin"-lə nə demək istəyir?

**Cavab təxminən belədir:**

**Birincisi,** üç nöqtələr və "lakin" o deməkdir ki, ölkəmizdə sovet hakimiyyəti illərində, özü də həmin dövrdə məmləkətimizdə kommunist ideologiyasının "qılıncı"-nın hər iki tərəfinin iti surətdə kəsdiyi bir zamanda, respublikamızın ali məktəblərində dinşünaslıq və islamşünaslıq fənnləri tədris olunurdu. Çox-çox təəssüflər olsun ki, ölkəmizdə milli müstəqillik əldə edildikdən xeyli sonra bəzi əlaqədar rəhbər strukturlarda çalışan ayrı-ayrı məmurların sırf subyektiv mühazirələrinə əsasən adı çəkilən fənnlərin tədrisi yasaq edilmişdir.

**İkincisi,** üç nöqtələr və "lakin" o deməkdir ki, həmçinin ölkəmizdə sovet hakimiyyəti illərində respublikamızda islamşünaslıq sahəsində yüksək ixtisaslı milli mütəxəssis kadrların hazırlanmasında "Dinin tarixi və nəzəriyyəsi" ixtisası 09.00.06 indeksi üzrə müdafiə şurası yenə də bəzi əlaqədar rəhbər strukturların və ayrı-ayrı məmurların sırf şəxsi subyektiv mülahizələrinə əsasən qeyd olunan şuranın fəaliyyəti dayandırılmışdır.

**Üçüncüsü,** üç nöqtələr və "lakin" o deməkdir ki, Respublikamızda mövcud ilahiyyat institutu fəaliyyət göstərir. Əlbəttə, bu üç nöqtələr və "lakin"-lə bağlı bu qəbildən olan digər mülahizə və faktların sayını artırmaq olar…

Bəli, 86 yaşını qeyd etmək ərəfəsində olan islamşünas-alim Əsədulla Qurbanov bu sahədə öz fundamental elmi əsərləri və araşdırmaları ilə ölkəmizdə nadir şəxsiyyətlərdəndir. Məhz onun araşdırmaları nəticəsində Azərbaycanda bu mövzuya maraq artmış və bu sahədə bir sıra uğurlu layihələr reallaşdırılmışdır.

**Qeyd edək ki, Əsədulla Qurbanov Bakı Dövlət Universitetinin İslamşünaslıq-Elmi Tədqiqat Mərkəzinin rəhbəri, fəlsəfə elmləri doktoru, professor, Azərbaycan Respublikasnın "Qabaqcıl Təhsil İşçisi" (24 may 1916-cı il no:11/363), Respublika Ağasaqqallar Şurasının üzvü, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Tərəqqi" (2000-cı il no:000024) medallı, Azərbaycan Respublikasın Prezidenti, cənab İlham Əliyevin "Fəxri Diplomçusu" (2019-cu il), məşhur "91"-lərdən biri, Azərbaycan Hacılar Xeyriyyə Cəmiyyətinin üzvü "Hacı", BMT-nin "Sülh Səfiri", Çoxsaylı elmi, bədii-publisistik əsərlərin müəllifi, keçmiş SSR-nin və Azərbaycan SSR-nin "Bilik və Fəlsəfə" cəmiyyətlərinin üzvü, keçmiş SSR-nin "Əla Mədəniyyət işçisi" (1967), Avropa Nəşr Evinin "Qızıl medalçısı", "Ən yaxşı Tədqiqatçı-Alim" mükafatının laureatı, Ankara Beynəlxalq "Söz Akademiyası"nın üzvü, Bir sıra xarici, dost ölkələrin, o cümlədən "Misir Ərəb Respublikasının mükafatçısı" kimi bir sıra yüksək titulların sahibidir.**

Asəf ABBASOV